السنّة النبوية وعلومها
www.sunnah.global

# Kim Allahdan başqa məbud olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna ürəkdən ixlasla şəhadət edərsə, Allah cəhənnəmi ona haram edər

Malik bin Ənəsdən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Bir gün Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) səfərdə yəhər üzərində arxasına aldığı yol yoldaşı Muaza üç dəfə: “Ey Muaz ibn Cəbəl” - deyə səslənir, Muaz da 3 dəfə: “Buyur, ey Allahın Rəsulu, əmrindəyəm” - deyə cavab verir. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) isə deyir:“Kim Allahdan başqa məbud olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna ürəkdən ixlasla şəhadət edərsə, Allah cəhənnəmi ona haram edər". Bu zaman Muaz soruşur: "Ey Allahın Rəsulu, bu şad xəbəri insanlara çatdırımmı, sevinsinlər?". Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurur: “Onda insanlar arxayınlaşarlar”. Yalnız ölümünə yaxın Muaz - elmi gizlətmək günahından - qurtulmaq üçün bu bilgini xəbər vermişdir.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Muaz bin Cəbəl (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) arxasında onun miniyinin (heyvanının) üzərində idi. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ona deyəcəklərinin əhəmiyyətini vurğulamaq üçün üç dəfə: «Ey Muaz?" - deyə səsləndi. Hər dəfə ona səsləndikdə Muaz: "Buyur, Ey Allahın rəsulu, əmrindəyəm" deyə cavab verir. Yəni - "təkrar-təkrar sənin çağırışına cavab verirəm və bu cavabla səadət diləyirəm" demək istəyir. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ona xəbər verdi ki, Allahdan başqa ibadətə layiq ilah olmadığına, yəni Allahdan başqa həqiqi məbud olmadığına və Məhəmmədin Allahın Rəsulu olduğuna sidq-qəlblə, yalan olmadan şəhadət verən hər kəs bu halı üzrə ölərsə Allah ona cəhənnəmi haram edər. Və Muaz Allah Rəsulundan (Allahın salavatı və salamı onun üzərinə olsun) soruşur ki, bu xəbəri insanlara çatdırımmı ki, sevinsinlər və bu onlar üçün müjdə olsun? Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) insanların buna arxayınlaşıb, əməllərini azaltmaqlarından qorxdu. Muaz yalnız ölümünə yaxın - elmi gizlətmək günahına batmasından qorxaraq - bunu insanlara xəbər verir.

النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC
E-Da'wah Committee